# Həyat və yaradıcılığının əsas tarixləri

| | |
|---|---|
| **1870** | - Əbdürrəhim Əsədbəy oğlu Haqverdiyev mayın 4(14)-də Şuşa şəhəri yaxınlığında Ağbulaq kəndində anadan olmuşdur. |
| **1872** | - Atası Əsədbəy vəfat etmişdir. Əbdürrəhim anasının yanına gəlmişdir. |
| **1873** | - Anası Hüsnicahan xanım Həsənəlibəy Sadıqbəyovla ailə qurmuş, balaca Əbdürrəhim əmisi Əbdülkərimbəyin himayəsində yaşa-mışdır. |
| **1875** | - Əbdülkərimbəy vəfat etdikdən sonra Əbdürrəhim anasının yanına gəlmişdir. |
| **1880** | - Şuşada Yusifbəyov Məlikhaqnəzərovun yay məktəbinə daxil olmuş, eyni zamanda, mollaxanada oxumuşdur. |
| **1881** | - Müvəffəqiyyətlə imtahan verərək Şuşa Realnı məktəbinə qəbul olmuşdur (10 oktyabr). |
| **1884** | - Şuşada Yusifbəy Məlikhaqnəzərovun hazırladığı "Xırs quldurbasan" tamaşasına baxmışdır. |
| **1885** | - M.F.Axundovun komediyalarının təsiri ilə "Hacı Daşdəmir" adlı pyes yazmışdır. Əsərin əlyazması qalmamışdır. |
| **1890** | - Şuşa realnı məktəbinin VI sinfini bitirmişdir (8 iyun). Tiflis Realnı məktəbinin VII sinfinə daxil olmuşdur (avqust). Bir il burada təhsil almışdır. "Nahaq qan" faciəsini və İ.A.Krılovun "At və eşşək" təmsilini rus dilindən Azərbaycan dilinə tərcümə etmişdir. |
| **1891** | -Tiflis Realnı məktəbini bitirmişdir (14 iyun). Peterburq Yol Mühən-disləri İnstitutuna daxil olmuşdur. |
| **1892** | - Peterburqda Aleksandrınski teatrının tamaşalarına baxmış, "Yeyərsən qaz ətini, görərsən ləzzətini" əsərini yazmışdır (əlyazması qalmamışdır). |
| **1895** | - Tiflisdən Bakıya gələrkən qatarda N.Vəzirovl (1854-1926) qarşılaşmış, onun "Çəkmə, çəkə bilməzsən, bərkdi fələyin yayı" adlı faciəsinin əlyazmasını oxumuş, əsərin "Müsibəti - Fəxrəddin" adlandırılmasını təklif etmişdir (iyul), Peterburq Universitetinin Şərq fakültəsində mühazirələrə qulaq asmışdır. |

**1896** - Tələbə ikən "Dağılan tifaq" faciəsini yazmışdır.Əsər yay tətili zamanı Şuşada tamaşaya qoyulmuşdur.

**1897** - Peterburqda "İslam cəmiyyəti-xeyriyyəsi" Yaradılmışdır. Ə.Haq-verdiyevin rejissorluğu ilə Şuşada "Məcnun Leylinin qəbri üzərin-də" səhnəciyi tamaşaya qoyulmuşdur (avqust).

**1899** -"Dağılan tifaq" əsəri Peterburqda müsəlman tələbələrinin xeyriyyə cəmiyyəti tərəfindən kitab halında nəşr olunmuşdur. Kitabdan bir neçə ədəd satılmaq üçün Peterburqdan Naxçıvana Q.Şərifzadəyə (1854-1917) göndərmişdir. Ali məktəbi bitirmişdir.

**1899-1900** - Şuşada müəllimlik etmiş, "Bəxtsiz cavan" pyesini yazmış, əsər tamaşaya qoyulmuşdur (1900).
- Ə.Haqverdiyev Tükəzban xanımla ailə həyatı qurmuşdur.

**1901** - Şuşadan Bakıya gəlmiş, pedaqoji fəaliyyətlə məşğul olmuş, "Pəri-cadu" pyesini tamamlamışdır.
- Bakıda "Müsəlman dram truppası"nıtəşkil etmişdir. Şuşada xalq ifaçılarının konsertini keçirmişdir.

**1902** - Bakıda Birinci Şərq konsertləri keçirmişdir (11 yanvar). İlk dəfə xalq çalğı alətləri ansamblı yaratmışdır. Rejissorluq etmiş, M.F.Axundov, N.Vəzirovun və özünün əsərlərini tamaşaya qoymuşdur. İlk qadın aktyoru Minurə xanım Davidovanı çıxarmışdır.

**1904** - Şuşa şəhər idarəsinə üzv seçilmiş, Bakıdan Şuşaya qayıtmışdır. 7 il Şuşada yaşamışdır.

**1905** -“Millət dostları” pyesini yazmışdır. Əsər “Həyat” qəzetində dərc olunmuşdur.

**1906** -"Həyat" qəzetində "Ata və oğul" (7, 9, 15, 17 mart), "Ayın şahidliyi" hekayələri dərc olunmuşdur. Gəncə qəzasında Dövlət dumasna üzv seçilir. Yazıçı Peterburqa gedərək orada tədqiqat işi ilə məşğul olur.

**1907** - Şuşada yaşamışdır. "Xortdanın cəhənnəm məktubları" povesti "Molla Nəsrəddin" jurnalında hissə-hissə çap olunmuşdur. "Ağa Məhəmməd şah Qacar" pyesi yazılmışdır. Korolenkonun "Qoca zəng çalan" əsərini Azərbaycan dilinə tərcümə etmişdir.

**1908** -"Bomba" novellası "Molla Nəsrəddin" jurnalında dərc olunmuşdur (2 iyun, №22).
- Ü.Hacıbəyovun Bakıda tamaşaya qoyulan "Leyli və Məcnun" operasına dirijorluq etmişdir.

- Şekspirin "Hamlet", Şillerin "Məkr və məhəbbət", "Qaçaqlar", "Vilhelm Tel", Volterin "Soltan Osman" əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir.

**1909** - "Kimdir müqəssir" pyesini yazır.

**1910** - "Marallarım" ümumi başlığı altında yazdığı hekayələrin ilk nümunələri "Molla Nəsrəddin" jurnalında çap olunur.

**1911** - Ağdama köçmüşdür. M.F.Axundovun anadan olmasının 100 illiyi münasibətilə "Xəyalat" avtobioqrafik pyesini yazıb, Bakıda çap etdirmişdir. "Ac həriflər" məzhəkəsi yazılmışdır.
- Xəzər dənizçilik idarəsində qulluğa girmiş, Həştərxanda olmuş, N.Nərimanovla görüşmüşdür.

**1912-1913** -Ağdamda yaşamış, teatr qruppası yaratmış, müxtəlif əsərləri tamaşaya qoymuşdur. M.Ə.Sabirin vəfatının ildönümü ilə əlaqədar "İki il" məqaləsin yazıb "Molla Nəsrəddin" jurnalında dərc etdirmişdir (1913, №20).

**1914** - Ağdamda ikən "Şeyx Şəban" hekayəsini yazıb, Cəlil Məmməd-quluzadə və İbrahim Tahirə oxumuşdur.

**1915** - "Şeyx Şəban" hekayəsi "Açıq söz" qəzetində dərc olnmuşdur.

**1916** - Ağdamdan Tiflisə köçmüşdür.
- Tiflisdə çıxan "Şəhərlər İttifaqının Qafqaz şöbəsinin əxbarı" adlı rus dilində çıxan aylıq məcmuənin müdiri vəzifəsində çalşır.

**1917** - Fevral inqilabı günlərində Borçalı qəzasında komissar kimi əhali arasında iş aparmışdır. "Röya" hekayəsi "Qardaş köməyi" məcmuəsində "Əfəndi" imzası ilə nəşr olunmuşdur. "Həmşəri pasportu" hekayəsini "Molla Nəsrəddin" jurnalı oxuculara çatdır-mışdır.

**1918-1919** - Tiflisdə, Dağıstanda və Bakıda yaşamışdı, "Mirzə Səfər" hek-ayəsinin ilk variantı "Dartan-partan" jurnalında dərc olunmuşdur.

**1920** - Bakıda yaşamış, "Pəri cadu", "Dağılan tifaq" və "Bəxtsiz cavan" dramları burada tamaşaya qoyulmuşdur.

**1921** - Dövlət teatrlarına müfəttiş vəzifəsinə təyin olunmuşdur. Azərbaycan Dövlət Universitetində ədəbiyyatdan mühazirələr oxumuşdur (1921-1931-ci illərdə), "Ağac kölgəsində" pyesi yazılmışdır.

**1922** - Şərq fakültəsində katib işləmiş. “Padşahın məhəbbəti” əsərini yazmışdırD.Bünyadzadə adına Azərbaycan Dövlət Teatrında ədəbi fəaliyyətinin 30 illiyinə həsr olunmuş təntənəli gecə keçirilmiş, əsərlərindən parçalar göstərilmişdir.

**1923** - Azərbaycan teatrının 50 illik yubileyi münasibətilə yaradılmış təşkilat komitəsinə rəhbərlik etmişdir. (Azərbaycan Tədqiq və Tətəbbö cəmiyyətinin sədr müavini, sonra sədri seçilmişdir.

**1924** - Ə.Qəmküsarın vəfatının ildönümü münasibətilə yazdığı “Beş il” məqaləsi “Kommunist” qəzetində dərc olunmuşdur (14 mart, №40).
- Azərbaycan diyarşünaslarının birinci qurultayında bu cəmiyyətin sədri seçilmişdir. Rusiya Elmlər Akademiyasının ölkəşünaslıq bürosunun üzvü olmuşdur.

**1926** - “Ədalət qapıları”, “Ağac kölgəsində” və “Vaveyla” pyeslərini yazmışdır.

**1927** - “Köhnə duman” pyesini yazıb bitirmişdir.
- Ədəbi fəaliyyətinin 35 illik yubileyi qböyük bir təntənə ilə qeyd edilmişdir.

**1928** - Ədəbiyyat və incəsənət sahəsindəki xidmətləri nəzərə alınaraq “Əməkdar incəsənət xadimi” fəxri adına layiq görülmüşdür. “M.F.Axundovun həyatı və fəaliyyəti”, “Mirzə Fətəli və ərəb əlifbası”, “Mirzə Fətəlinin faciəsi” məqalələrini yazmışdır.

**1929** - Azərbaycan yazıçılarının Gürcüstana və Ermənistana gedən nümayəndə heyətinin rəhbəri olmuşdur.

**1931-1932** - Azərbaycan Şura Yazıçılar İttifaqının məsul katibi vəzifəsində çalışmışdır.
- “Yoldaş Koroğlu”, “Çox gözəl”,Sağsağan” pyeslərini yazmışdır (1932). Həmin ildə ədibin ədəbi fəaliyyətinin 40 illik yubileyi keçirilir.

**1933** - Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin Fəxri Fərmanına layiq görülmüşdür.

**1933-cü il** - Bakıda vəfat etmişdir (11 dekabr). Məzarı Fəxri xiyabandadır.

**1957** - 2 cildlik əsərləri çap edilmişdir.

**1963** - “Marallarım” filmi çəkilmişdir.

**1964-1968** - Ağdam Dram Teatrına Ə.Haqverdiyevin adı verilmişdir.

**1975** - İ. Kərimovun "Ə.Haqverdiyev və teatr" kitabı çap edilmişdir.

**1980** -"Qoca tarzən"hekayələr kitabı Gənclik nəşriyyatı tərəfindən çap edilmişdir.

**1983** - Evlənmək istəyirəm filmi çəkilmişdir.

**1987** - "Xortdanın cəhənnəm məktubları" Gənclik nəşriyyatı tərəfindən çap edilmişdir.

**1992** - Əbdürrəhim bəy Haqverdiyev -130

**1993** - **"**Ac həriflər" filmi çəkilmişdir.

**2001** - "Marallarım"əsəri Turan nəşr evi tərəfindən çap olunmuşdur.

**2005** - Əsərləri Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunmuş və ölkə kitabxanalarına hədiyyə edilən kitabı hər iki cildinin nəşri 2005-ci ildə "Lider nəşriyyat"tərəfindən həyata keçirilmişdir.

**10 may 2010** - *Əbdürrəhim bəy Haqverdiyevin* 140 illik yubileyi keçirilmişdir.

**2014** - *Ə.Haqverdiyevin* adına poçt markası çıxmışdır.

**7 may 2019** - Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Əbdürrəhim bəy Haqverdiyev Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.

**31 yanvar 2020** **-** *Əbdürrəhim bəy Haqverdiyevin* 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin *Sərəncamı.*

- Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə əlaqədar il ərzində bir sıra tədbirlərin keçirilməsini planlaşdırıb.

- Azərbaycanda milli düşüncənin inkişafında əhəmiyyətli rol oynamış Əbdürrəhim bəy Haqverdiyevin anadan olmasının 150 illiyi ilə əlaqədar ölkəmizin İndoneziyadakı səfirliyinin müşaviri

Gültəkin Həbiblinin bu ölkənin nüfuzlu minanews saytında "Əbdürrəhim bəy Haqverdiyev-150" adlı məqaləsi yerləşdirilib.

(https://minanews.net/mengenang-sastrawan-besar-azerbaijan-abdurrahim-bey-hagverdiyev/)